# 2023-cü ildə idxal olunmuş mallara tətbiq edilmiş sadə orta, orta çəkili tarif dərəcələri, “0%” tarif dərəcəsi və sərbəst ticarət sazişləri imzalanmış ölkələrdən preferensial qaydada idxal gömrük rüsum dərəcələri barədə məlumatlar

1) **2023-cü ilin 12 ayı üçün ortaçəkili tarif dərəcəsi hesablanarkən aşağıdakı parametrlərdən istifadə edilmişdir:**
   a) 12 aylıq idxal əməliyyatlarının həcmi;
   b) 12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi.

12 ay ərzində idxal əməliyyatlarının həcminin 17 285 367 210 ABŞ dolları olduğunu nəzərə alsaq (statistik dəyər ABŞ dolları ilə ifadə olunduğu üçün), həmin dövr üçün onların ümümi gömrük dəyəri 29 385 124 257 manata bərabər olur:

$\text{Gömrük}_{\text{dəyəri}}$ = 17 285 367 210 * 1.7 manat = 29 385 124 257 manat

12 ay ərzində toplanılmış idxal gömrük rüsumlarının həcmi 1 625 125 300 manata bərabər olduğu üçün, bu rəqəm idxal edilmiş malların ümumi gömrük dəyərinin 5.53 faizini təşkil edir (Cədvəl 1).

***Cədvəl 1. Ortaçəkili tarif dərəcəsinin hesablanması.***

| İdxal edilmiş malların ümumi gömrük dəyəri (AZN) | İdxal edilmiş mallar üzrə gömrük rüsumlarının məbləği (AZN) | Ortaçəkili tarif dərəcəsi (faizlə) |
|---|---|---|
| **29 385 124 257** | **1 625 125 300** | **5,53** |

2) **2023-cü il üzrə tarif xəttləri üzrə sadə orta tarif dərəcəsi 7.74 % təşkil etmişdir.**

Sadə orta tarifin hesablanmasında “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarında tətbiq olunan idxal gömrük rüsumlarının dərəcələrinin tarif xəttlərinə nisbəti əsasında müəyyənləşdirilir:

Tarif xəttlərinin sayı (Txs) – ***10621***
Rüsum dərəcələrinin məcmusu (Rdm) = (0%x3400) + (5%x1973) +(15%x4823)=**82210**

***Sadə orta tarif = Rdm/Txs= 82210/10621=7.74%***

3) ***Müxtəlif mal mövqelərinə tətbiq edilən advalor gömrük rüsumlarının tarif dərəcələri ilə bölgüsü, spesifik gömrük rüsum dərəcələri və onların sayları.*** **(Cədvəl 2)**

*Cədvəl 2. Tarif dərəcələrinin XİF MN üzrə bölgüsü.*

| **Tarif dərəcəsi** | **XİF MN üzrə alt yarımmövqelərin sayı** |
|---|---|
| 0% | 3400 |
| 5% | 1973 |
| 15% | 4823 |
| Spesifik | 425 |
| **cəmi** | **10621** |

4) ***2023-cü il üzrə ölkə ərazisinə idxal edilən malların 28,86 faizi "0" faiz idxal tarif dərəcəsinə cəlb olunmuşdur. (Cədvəl 3):***

***Cədvəl 3. 0% idxal gömrük rüsum dərəcəsinə cəlb edilmiş idxalın həcmi.***

***(ABŞ dolları ilə)***

| **Dövr** | **İdxalın həcmi** | **"0" dərəcə ilə idxal** | **"0" dərəcə ilə idxalın xüsusi çəkisi** |
|---|---|---|---|
| **01.01.2023-31.12.2023** | **17 285 367 210** | **4 989 253 460** | **28,86%** |

5) ***2023-cü il üzrə ölkə ərazisinə ikitərəfli və çoxtərəfli qaydada imzalanmış sərbəst ticarət sazişlərinin (STS) müddəalarına əsasən idxal gömrük rüsumundan azad edilməklə idxal edilən malların ümumi idxalda çəkisi 16,43 faiz təşkil etmişdir. (Cədvəl 4):***

***Cədvəl 4. STS ölkələrindən prefensial idxalın həcmi.***

***(ABŞ dolları ilə)***

| **Dövr** | **İdxalın həcmi** | **STS ölkələrindən idxal** | **STS ölkələrindən prefensial idxalın xüsusi çəkisi** |
|---|---|---|---|
| **01.01.2023-31.12.2023** | **17 285 367 210** | **2 840 300 410** | **16,43%** |